# Xurma nənə

(Hekayə)

Qarşı-qarşıya gəlsəniz, gözucu ona diqqət yetirsəniz, baxışlarınız sizi aldadacaq, təəccüblənməyin, baxışlarınızı da qınağa çəkməyin, elə biləcəksiz ki, ağ paltarlı, sürahı boylu, qıvraq yerişli bu xanımın 50-60 yaşı ola-olmaya, əslində o, üç ay bundan qabaq, 94-ü ötüb, 95-ə salam verib. İsti aylarda ağ, qırağı butalı kəlağayı, soyuqlar düşəndə qara yun şalı örtür başına...

Muğan yerində belə uzunömürlülük kimin xəyalına gələ bilər... Elə ciddi narahatlığı yoxdu onun. Nə təzyiq, nə şəkər, nə infarkt. Nəvə-nəticələrə xoş rəftarı, mehribançılığı var. Çatana "sənə qurban olum", "qadan mənə gəlsin", "başuva dönüm" deyir. Hərdən yaşına görə ona sataşanlara belə söyləyir: Neynim a bala, Allah verdiyi ömür payıdı də... Onu başqasına verə bilmərəm ki... Qara torpağın altına köç eyləyənlərdən nəyim artıqdı.

"Qarı" sözündən acığı gəlir, bunu hamı bilir "nənə" deyənlərə qucaq açır, üzündən-gözündən öpür, şirin nəvaziş göstərir. Pensiyasını nəticələrinə peşkəş eləməkdən övq alır.

Az qala 75 il bundan əvvəl dünyanın ən xoşbəxt, bəxtəvər insanı idi. Özü qədər sevdiyi Hənifə adlı bir gənclə ailə həyatı qurmuşdu. Necə də sevirdi cavan, odlu-alovlu Hənifəsini və Əliqismət adlı bir övladları da onun bəxtəvərliyini birə beş artırmışdı. Əl-ələ verib çox da böyük olmayan iki otaqlı ev tikdilər. Lakin taleyi kəm gətirdi, Hənifəsi getdi müharibəyə, üç ildən sonra qara kağızı gəldi. İztirablı, əzablı günlər yaşadı. Gecələr körpəsini, Hənifəsinin bircə nişanəsini bağrına basıb, ağlayır, səhəri diri gözlü açırdı... Təsəllisi bircə o idi ki, kənddə başı papaqlı kişi qalmamışdı, hətta atası Oruc da getmişdi davaya...

Cavan, gözəl gəlin idi. İstəyəni də vardı amma atmacalara birmənalı cavab verirdi: ərə getmək?? Yox, yox, qadının bir bəxti olar, iki yox. Hətta bir dəfə arvadı ölən kənd soveti sədrinin elçisini də qapıdan qovmuşdu. O mənzərə, o hadisə hələ yadından çıxmayıb: elçiliyə gələn qarıya sərt üz döstərdi-.Onun köynəyinin ətəyini didişdirən Əlqisməti başı üzərinə qaldırıb qışqırdı: "Bax, budu Hənifə, mənim kişim budu" dedi və göz yaşını sel kimi axıtdı.

Namus, qeyrət simvoluna çevrildi, kipriyi ilə od götürüb, aclığa, səfalətə orda-burda haqqında deyilən şər-böhtanlara dözdü, anasına sığınıb böyüdü. Hənifəsinin bircə nişanəsi olan Əliqismətinə, onun qədd-qamətinə baxıb dərindən köks ötürürdü, cəmi-cümlətəni ikicə il xoşbəxt günlər yaşadığı ilk və son sevgisi. Hənifə canlanırdı gözləri önündə... Sonrao, oxutdu, evləndirdi oğlunu kişi eləyib kişilərə qoşdu. Gəlini Leylayla əlbir olaraq bircə balasını böyük külfət sahibi eləd. 6 oğlan, 2 qız nəvəsi onun pişavazında həmişə müntəzirdi. Nəvələr çox şükür Allaha özləri də babadı, nənədi indi.

Bəlkə elə əqidəsinə, məsləkinə, namuslu yaşam tərzinə görə böyük qüdrət sahibi Ulu Yaradan onun ömür payını artırıb, hə? Muğan yerində 95 yaş! Möcüzədi, vallah...

Beləcə Xurma nənə keçmişdən gəlib sabaha: gedir, bir addım da o yan-bu yana dönmür, istəkli Hənifəsini bir gün belə unutmur, bir zamanlar əl-ələ verib qaraladıqları yastı-yapalaq komanı nəvə-nəticələrin dilə tutub sökmək istəyinə qulaq asmadı, burdan mənim kişimin nəfəsi, ətri gəlir... Elə bilirəm onun ruhu canlıdır. Gecələr görüşürəm, şirin söhbət eləyirəm onunla. Yatdığı otaqda ərinin şəkillərini divar boyu asıb, əksər şəkillərdən özü, Hənifəsi və Əliqisməti gəlib-gedənə "baxır".

Kimin nə cürəti var onun bir sözünü iki eləyə. Arxası, havadarı uzaqda deyil. Oğlu Əliqismət hərdən bir barmaq silkələyir hamıya: "Baxın ha, hansı oğul, gəlin anama cavab qaytarsa, onun tapşırığını qulaq ardına vursa tay məndən inciməsin.! Nənə elə bilir uşaqdı hələ Əliqismət: "Ay oğul, ay bala, özüvü bədnəzərdən qoru, soyuğa vermə, hərcayı, oturuşunu-duruşunu bilməyən adamlardan uzaq ol". Balaya bax ey, 75 yaşlı ağsaqqal, həyatın isti-soyuğunu görmüş qoca!

Böyük gəlni Leyla ilə ünsiyyətdə olur, cici-bacıdı, tez-tez hücrəsindən ayrılıb həyətin o başında yaşayan Leylanın yanına gəlib-gedir, dərd-sərini, rastlaşdığı, ancaq qəbul eləyə bilmədiyi bəzi həyat gerçəkliklərini ona çatdırır. Hərdən eycahanlıq olanda televizora da baxır, hirslənir, boğma verir danışanlara-"Buna baxın, siz Allah utanıb qızarmırlar bir damcı, gör qız -gəlinə nə deyirlər: al tozsoranı, bununla evi süpür. Al paltaryuyanı, al qabyuyanı...Xalça-palazı sən yuma, mən gəlib yuyaram"... Gəl gözəllik salonuna, saç birçəyini biz səliqəyə salaq... Aley, daş başuvuza, qız-gəlini ev-eşikdə işləməməyə öyrədirlər ey....

O gün bərk danladı məktəbdə tarix müəllimi işləyən gəlni Dilarəni:

-Ay qız, nə gündəsən sən? Çaşmısan? Bu boyda bədən olar? Oturanda əlini yerə dayaq verib ayağa qalxırsan. Fısıltın, nıqqıltın qonşuya gedir. Qadın olar 60-70 kilo, uzaqbaşı 80 kilo. Sən bəlkəm azından 120-130 kilosan. İşlə, hərəkət elə qızım. Evi, həyət-bacanı sil-süpür, paltar, qab yu... Belə getsə xəstəlik taparsan, tez qocalarsan...İnsan gərək acmasa yeməsin, doymadan əlini süfrədən çəksin.

Bu nədi, yenə də qışqırtısı götürüb aləmi başına. Barmaq silkələyir hamıya, söyüb-söylənir.:

-Baxarsız halıza, qoy Əliqismət gəlsin evə, qırıb-qırışdıracaq sizi, qudurubsuz. Tanrıya bəndəlik etmirsiz. Nə oub, nə baş verib, kimdi onun xətrinə dəyən, isti aşına soyuq su tökən? Bəlkə kimsə ağzı cıvıqlıq eləyərək, acı söz deyib ona?

Qadınlar, qız-gəlin cəm oldular onun yaşadığı evin qabağına. Demə dünən səhər-səhər Orxan adlı nəvəsi atasına "papulya" deyibmiş. Böyük hadisə baş verib, nən bu sözə ggörə çıxıb özündən:

-"Papulya", "mamulya" nə söz-söhbətdi. Baxın ha, nə qədər mənim canım sağdı, hamınıza tapşırıram:

"Ata", "ana" deyin sizi əkib-doğanlara! Balalarınızı da belə tərbiyə edin. Bax mənim sözümü sırğa eləyib, asın qulağınızdan... Bildiz, məni başa düşdüz? İndi haydı, hər kəs öz evinə.

...Bazar günü. Günorta namazından sonra 5-6 il qabaq öz əliylə xeyir-dua verib gəlin gətirdiyi gözəlləri çağırdı.

-Ay tez olun, tez olun, gəlin, gəlin. Sözüm var sizə!

Gülüşə-gülüşə cəm oldular Xurma nənənin ətrafına. Balaca yasdığı büzmələyib qoymuşdu qabağına. Başladı asta-asta danışmağa:

-Hə, baxın bura, elə bilin, bu 3-5 aylıq körpədi, mənim nəticələrimdi. Bə onları necə bələməlisiz? Baxın-baxın, deyib o uşaq bələməyi səliqə-səhmanla göstərdi.

-Körpənin əllərini,qollarını, qıçlarını yanına salıb düz, bax beləcə bələyin, ipi möhkəmcə bağlamayın, yoxsa ağlayar, sızlayar körpə. Həmişə ılıq suyla yuyun onu. Atın-tutun, bağrınıza basın, qoy sizin iyinizi alsın, gülümsəsin...

Nələyi mənim kimi bağlaya bilməsəz sonra peşmançılıq çəkərsiz... Elə ki, uşaq böyüdü, baxırsan bir qolunu yanına salır, o birini bədəndən aralı fırladır, bir qıçını düz atır, o birisini əyri.

Hə, dəbərin, hər kəs evinə, ailəsinin yanına sonra nə fikirləşdisə, səs elədi: dayanın, bu sözümü də sırğa eləyib qulağınızdan asın:

-Uşağa azı iki il döz südü verin. O malış zadı tullayın o yana... Yoxsa balalar sısqa, əcaz, çəlimsiz olar... Tərəvəz, mer-meyvə, süd-qatıq yeyin... Körpəni yatızdıranda həzin-həzin layla çalın...

Yadıma düşmüşkən, ananın var dövləti övladlarının tərbiyəsi, əxlaqıdır. Qız başqa yola düşürsə, ailənin, qohum-əqrəbanın alnına xəcalət təri gətirir... Nanəcim, biqeyrət oğul bir əlin altıncı barmağı kimidir. Onu kəsirsən ağrısı, sızıltısı səni yatmağa qoymur, kəsmirsən: bəzi heyvərələr lağ edir, gülür sənə... Pis tərbiyəyə görə birinci günahkar anadır...

Nəvələr, heç demə, boş vaxt tapan kimi nənənin yanına cəm olub, onun qatı açılmayan, hamını düşündürən nağıllarını eşitməkdən xüsusi zövq alırlar. O nağıllardan birini dilə gətirək.

İbrahim adlı kişinin var dövləti başdan aşır. Qışlağı, yaylağı, qoyun sürüsü, mal-qarası var. Halal zəhməti, alın təri ilə o, təkcə ailəsini deyil, qohum-əqrəbasını şad-xürrəm dolandırır. Kasıba, miskinə əl tutur.

İki oğlu var onun. İkisi də məriffətli, əhli-namaz. Bir gün ağsaqqal ğzüylə həsbi hal edir: bu dünyanın sonu varmı? Əzrayıl gəldimi, Allahın verdiyi əmanəti geri istədimi nə çarə, getməliyəm... Bəs ömür payımın haçan sonudur? Hə, budu, səksən, doxsan və bir gün yoxsan. Bəs var-dövləti hansı oğula tapşırım? Düşündü, düşündü, hər iki oğlunu çağırdı yanına:

-Gedin mənə ən şirin şey tapın, gətirin. Ondan şirini olmasın, ha!..

Getdilər və böyük oğul tez qayıdıb gəldi. O, 5 kiloqram təmiz beçə balı alıb gətirdi...

Kiçik oğul axşamüstü evə gəldi, kəmali ədəblə atasına təzim eləyib, əlində tutduğu heyvan dilini qoydu onun qabağına, "Əhsən oğul, deməli, hər şeydən şirin dildi"...

Hə, söz belədi balalarım: şirin dilin olsa, var dövlətin, el içində hörmətin də olar.

Qoy bir sözümü də çatdırım sizə: inək sağ bilməyən, yorğan sırımağı, döşək salmağı bacarmayan qız-gəlin dolanmasın həndəvərimdə.! Qoyun qırxmağı, at çapmağı öyrənməyən kişiləri, cavan oğlanları gözm yoxdu görməyə...

Ayazlı, şaxtalı qış axşamlarında bekar, əli qoynunda dayanıb durmur, əlində milçi var. Heç kimə lazım olmasa belə corab, əlcək toxuyur, kim qılığına girsə, ötürür ona. Elə ki, havalar istiləşdi, qıç qatdanmır, işləyir. 15 sotluq torpağı şumlayıb, ləklər düzəldir, tərəvəz-bostan bitkiləri əkib becərir, sonra gəlinlərə səs eləyir "Gəlin turp, acıtərə, keşniş, şüyüd,ispanaq yığın aparın. Vərdiş eləyibsiz, bunları bazardan almağa.".. Ağacların mer-meyvəsini də nəvə-nəticə yoluşdurub yeyir.

Baharın gəlişi ruhunu qanadlandırır, yaşına yaraşmayan gənclik həvəsi ilə itirmədiyi o biri otaqda yığıb saxladığı dəmir-dümürü, başqa alətlərini salır işə. Əvvəlcə yunu didib darağa verir, sonra onu rəngləyir və başlayır rəng-bərəng palaz, kilim toxumağa. Bir kərki vurur, gəl görəsən. Yayın qızmar günlərində evin gün tutmaz divarı boyu allı-güllü, gözəl naxışlı xalça toxuyur. Ay gəlinlər, gəlin, gəlin nənənin "Hənifə" adlı xalçasına tamaşa eləyin. Baxın, öyrənin bu qədim sənətin incəliklərini...

***

Bu dünyanın ağ və qara rənglərdən ibarət olduğunu bilən məsum baxışlı, yalan-palan bölməyən nəticələr nənələrini çox istəyirlər, bir gün onu görməyəndə darıxırlar... Uşaqlara nə öyrədir? Beş barmağını havada utub, hər barmağın "vəzifəsini" sadalayır: bax, bu tutdu, bu kəsdi, bu bişirdi, bu aşırdı, culu-culu sənə nə qaldı...

Təkməcüt qədimi, unudulan oyundu. Odur baxın, nənə hər iki əlini arxada saxladı, birinə nəsə, pul, şokalad qoyub sonra ovuclarını yumulu halda qarşısındakının gözləri önündə tutub dedi: təkməcüt. Uşaq onun hər iki yumruğunun üstünə astaca vurdu: ya bundadı, ya ondadı, hə, elə bundadı dedi. Tapdım, uddu, tapmadımı, uduzdu, əvəzini ödəyir...

Beşdaş- Yaxın gəlin, baxın və təəccüblənin. Nənə on taxta ağ qırağı qıyılı tumanını bürmələyib balınc əvəzi qoyur altına, stolu çəkir qabağına, başlayır oyununa. Sol əlinin baş və şəhadət barmaqlarını aralı qoyur, sağ əliylə qabağındakı beş yumru daşı- o, bunu irəlicədən düzəldib, tez-tez atıb -tutur, qoymur yerə düşməyə və tək-tək ötürür sol tərəfdəki barmaqlarının arasına. Cəldlik tələb eləyir ha! Daş yerə düşsə, sol barmaqlarının arasından keçməsə "sən uduzdun lopağımı ver."

Nə lopaq? Ovurdlarını dombaldırsan, rəqibin beş barmağını bir yerə cəm eləyir və dombalan yerə, üzünə part! Sonra bu biri üzünə, part!

Xurma nənənin özünəməxsus zərb-məsəlləri var. O, deyir:

"Yalan danışanın üzüü qızarır!

"Səni 9 ay qarnında gəzdirən anaya ömrün boyu borclusan"

"Kimə qardaş dedim, oldu oğraş. Kimə bacı dedim, oldu acı"

"Mərdi qova-qova eləmə namərd"

"Haram tikə uğumunda qalar"

"Çox and içən, bil ki, yalan danışır"

"Oğlun səni söyürsə, arxayın ol, nəvən də onu söyəcək"

...Əliqismət həmişə, hər yerdə söyləyir: "Anam bizim tayfa-tirənin qaraçuxasıdır." Düz sözə nə deyəsən.

**ƏLİBALA RƏHİMOV,**
**publisist, filoloq,**
**"Qızıl qələm" mükafatı laureatı,**
**Biləsuvar**

Ədalət.-2016.-28 oktybar.-S.4.